# Din və media...

## Doğru dərk edildiyi zaman sülhün təminatçısıdır din...

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

**İnsan həyatını əhatə edən dəyərlər sistemində dinin rolu hər zaman üstün olub. Ümumiyyətlə, dini inanc istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsi olmaqla, onun bir növ istiqamətverici və hərəkətverici qüvvəsi kimi çıxış edib. O üzdən, hansı təriqətin üzvü olmasından asılı olmayaraq, hər kəsin dininə onun konstitusiyası kimi yanaşmaq lazımdır.**

Faktdır ki, din insanlar tərəfindən doğru dərk edildiyi zaman hətta sülhün təminatçısı rolunda çıxış edir. Konkret İslam dininə bu kontekstdən yanaşdıqda, onun ən humanist din kimi qəbul olunmasının kökündə məhz bu dəyərlər dayandığı şəksizdir. Lakin təəssüf ki, yaşadığımız mürəkkəb kataklizmlər dövründə, xüsusilə "ərəb baharı"nın başlaması ilə Orta Şərq dövlətlərindən böyük bir qaçqınlar ordusunun Avropaya üz tutması beynəlxalq mediada məqsədli şəkildə islamofobiya meylləri, radikal terror təşkilatlarının adının İslamla birgə çəkilməsi, İslam daxilindəki məzhəb problemlərinin qabardılması kimi məsələlər meydana gəldi. Üstəlik, Orta Şərqdə bəlli qüvvələr tərəfindən məqsədli şəkildə yaradılan İŞİD (Ərəb Şam Dövləti), "Boko haram" və digər bu kimi terror təşkilatlarının adının İslam dini ilə bağlanması əslində sadə insanlar arasında qorxu yaymaqla bir sıra ölkələrin daxilində xaos yaratmaq və beləliklə də bu ölkələrin müstəmləkə halına salınması məqsədinə hesablanmışdı və təbii ki, atılan bu addımlar İslamın əsl mahiyyətindən çox-çox uzaq idi. Lakin nə yazıq ki, bu məkrli plan baş tutdu və toruna hətta inanclı insanları da sala bildi. Halbuki, İslamı olduğu kimi dərk edib, onun bütün tələblərini yerinə yetirən şəxs heç bir halda digərinin canına və ya malına qəsd etməz, özünün olmayana (harama) sahiblənməz, intihara qalxmaz, yalan danışmaz, qiybət etməz və ən əsası, başqa dinlərin mənsublarına əsla düşmən münasibəti bəsləməz ki, adıçəkilən terror təşkilatları haqqında bunların heç birini demək olmaz.

### Azərbaycan dövlətçiliyinin əsas təməl prinsiplərindən biri - dini dözümlülük...

İslamın bizə təlqin etdiyi dəyərlər isə müasir dövrümüzdə çox ciddi problem olan mehriban qonşuluq və dinc yanaşı yaşama prinsiplərinə birbaşa cavab verən zəruri şərtlərdir. Elə Azərbaycan dövlətçiliyinin əsas təməl prinsiplərindən hesab olunan dini dözümlülük, tolerantlıq konsepsiyasının da öz mayasını məhz bu şərtlərdən aldığı aşkardır. Bir çox millətlərin kompakt yaşadığı Azərbaycan kimi ölkələrdə əslində də bu xətt həm də stabilliyin və təhlükəsizliyin qarantı kimi çıxış edir. O üzdən Azərbaycanın yaratdığı din-dövlət modeli digər ölkələrdə də təqdir olunur, nümunə olaraq göstərilir. Bütün bunların kökündə isə ölkənin sülhsevər siyasəti, qonşularla dinc yanaşı yaşamaq prinsiplərinə sadiqliyi və stabil, təhlükəsiz ölkə imicini qoruyub saxlamaq əzmi durur.



Faktdır ki, bu gün dünyanın bir çox ölkələrində məhz din adından istifadə olunaraq terror aktları, qanlı qırğınlar törədilir və təəssüflər olsun ki, bir çox hallarda bu olaylar məhz İslam adı ilə bağladılmağa çalışılır. Halbuki, İslam dini cana Allahın əmanəti kimi baxır və əcəlin yalnız Onun əmrilə gerçəkləşə biləcəyini təlqin edir. Bunu orta dini biliyi olan insanlar çox yaxşı dərk edir və o səbəbdən də bu istiqamətdə hər hansı provokasiyaya uymur. Lakin təəssüflə qeyd etməliyik ki, günümüzdə hələ də xurafata meyl edənlər tapılır və beləleri çox asanlıqla din pərdəsi altında pozucu fəaliyyət göstərən təmayüllәlin toruna düşərək özü özünü məhvə sürükləyir. Dediklərimizə konkret misal kimi ötən illərdə dünyanı lərzəyə salan, yuxarıda da adını çəkdiyimiz İŞİD təşkilatını göstərə bilərik. Adını müqəddəs İslam dini ilə bağlayaraq "xəlifəliyini" elan edən bu təşkilatın son bir neçə ildə necə qırğınlar törətdiyi, neçə-neçə şəhər və kəndləri viran qoyduğu, milyonlarla dinc insanı yurd-yuvasından didərgin saldığı günümüzün acı reallıqlarıdır. Və o da faktdır ki, bu təşkilatın üzvlər toplamaq üçün vaxtaşırı İnternet üzərindən etdiyi çağırışlara az qala bütün dünya ölkələrindən və nə yazıq ki, Azərbaycandan da gedənlər oldu. Bu qurbanların gedərkən ailələrini, kiçik yaşlı uşaqlarını özləri ilə götürməsi isə ayrı bir faciə idi və Azərbaycan dövləti duruma çox operativ şəkildə müdaxilə etməklə tezliklə bu hallara son qoymağı bacardı. Belə ki, Prezident İlham Əliyevin İŞİD sıralarında bədnam fəaliyyətin ardından ölkəyə qayıdanların məsuliyyətə cəlb olunacağı barədə imzaladığı sərəncam bu təmayülün qarşısının alınmasında əhəmiyyətli rol oynadı. Bununla neçə-neçə ailələr yad ölkədə qanlı qırğının qurbanı olmaqdan qurtuldu. Üstəlik, ölkədən gedib İŞİD sıralarında məhv edilən həmvətənlərimizin günahsız ailə üzvləri də dövlətin qayğısından kənarda qalmadı, Azərbaycan dövləti uzun diplomatik prosedurları keçərək günahsız körpələrin ölkəyə gətirilib yaxınlarına təhvil verilməsinə nail oldu.

### Radikal dini təmayüllərin ölkə içində qarışıqlıq salmaq cəhdləri əleyhinə medianın rolu...

Din adından istifadə mövzusunda danışarkən radikal dini təmayüllərin ölkə içində qarışıqlıq salmaq cəhdlərini də yaddan çıxarmalıyıq. Məlum olduğu kimi, yaxın illərdə belə təmayüllərin uzantıları Bakının "iki addımlığında" - Nardaran qəsəbəsində də kök salmağa cəhd etmişdi. Azərbaycanın hüquq-mühafizə orqanlarının həmin qüvvələr ətrafında keçirdiyi genişmiqyaslı əməliyyat nəticəsində dilində Allah kəlamı, əlində silah (!) neçə-neçə əslində İslamın əsl mahiyyətindən xəbərsiz insanları qaragüruhçu kütləyə çevirib ondan manipulyasiya vasitəsi kimi istifadə etmək istəyən şəxs ifşa olundu. Elə medianın həmin hadisələr barəsində yaydığı səhih məlumatlar və hadisələrlə bağlı verilən şərhlər ölkədə dini maarifləndirmənin bir nüansı sayılmalıdır. Eyni sözləri məlum "Gəncə hadisələri" haqqında da demək olar və hadisələrin sonrakı inkişafı əslində bu qüvvələrin eyni mərkəzdən idarə olunduğunu meydana çıxardı. Bu kontekstdə baş verənlər isə bir acı gerçəyi ortaya qoydu: insanlarımız din pərdəsi altında cinayətkar fəaliyyət göstərən şəbəkələrin toruna düşürsə, deməli, ölkədə ideoloji və maarifləndirmə işi istənilən səviyyədə getmir və ciddi islahatlara ehtiyac var. Lakin bu o demək deyil ki, məsuliyyət yalnız müvafiq dövlət qurumlarının üzərinə düşməlidir. Bu işdə media da, bütövlükdə cəmiyyət də eyni dərəcədə məsuliyyət daşıyır. Elə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də məhz bu səbəbdən sözügedən istiqamətdə apardığı məqsədyönlü fəaliyyətini media qurumları ilə koordinasiya etməkdə maraqlı tərəf kimi çıxış edir. Çünki media vasitələri bu fəaliyyətin geniş işıqlandırılmasında iştirak etməklə ölkədə dini maarifləndirmə işinin daha səmərəli təşkil olunmasına yardımçı olmaq baxımından ümumi işə öz töhfəsini verir. Təsadüfi deyil ki, son illər Azərbaycan Mətbuat Şurası ilə Dini İşlər üzrə Dövlət Komitəsi bir sıra birgə tədbirlərin keçirilməsinə nail olub. Bu tədbirlərin əsas məqsədi isə qloballaşan dünyamızda din pərdəsi altında baş verən təhlükəli hallara qarşı ölkədə maarifləndirici tədbirlərin daha geniş spektri əhatə etməsi, beləliklə də Azərbaycandakı bugünkü stabillik və tolerant mühitin təhlükəsizliyinin təmin olunmasına töhfə verməkdir. Bu tədbirlərin ana xəttini ölkəmizdə milli-mənəvi və dini dəyərlərimizin təbliğ edilməsində, dinin ictimaiyyətə düzgün formada, mahiyyəti üzrə çatdırılmasında, eyni zamanda dini radikalizm, terrorizm və ekstremizmə qarşı mübarizədə media təmsilçilərinin üzərinə düşən vəzifələrin təşviqi təşkil edir, eyni zamanda ideoloji təhlükəsizlikdə medianın oynadığı böyük rol diqqətə çatdırılır. Belə tədbirlərin birində DQİDK-nın sədri Mübariz Qurbanlı çox incə bir nüansa da diqqət çəkərək deyib ki, media bu kimi həssas məsələlərdə təhrifə yol verməməli, hansısa radikal fikirləri qabartmaqla, onun cəmiyyətdə yayılmasına imkan yaratmamalıdır. Çünki məlum həqiqətdir ki, dini inanc insanların ən həssas yeridir və tarixən din amilindən inanclı insanların "beyninin yuyulması" məqsədilə istifadə olunub. Səbəb də odur ki, cəhalətdə olan belə insanları idarə etmək daha rahat olur. Elə günümüzdə bir sıra ölkələrdə kamikadzelərin yetişdirilməsi, "cənnət" vədi ilə aldadılan belələrinin üzərinə bomba bağlayıb insanların gur olduğu yerlərdə özünü partlatması bunun əlaməti deyilmi?

### Dini maarifləndirmə proseslərində sektalar mövzusu...

Dini maarifləndirmə işinin təşkilindən danışarkən Azərbaycanda fəaliyyət göstərən müxtəlif adda dini sektalar da gözardı edilməməlidir. Məlumdur ki, bəlkə də dünyanın ən tolerant ölkəsi olan Azərbaycanın qanunvericiliyi burada dövlət qeydiyyatından və müvafiq prosedurdan keçdikdən sonra heç bir dini sektaya qanun çərçivəsində fəaliyyət göstərməyi qadağan etmir. Lakin bu sektaların heç də hamısı işini qanun çərçivəsində qurmur və bir çox hallarda sadə əhalini müxtəlif vasitələrlə tora salmağa çalışır. DQİDK-nın sədri Mübariz Qurbanlı deyir ki, ölkəmizdə 909 dini icma dövlət qeydiyyatından keçib və bu şəraitdə din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə çox böyük vəzifələr düşsə də, media, xüsusilə sosial media dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini cəmiyyətə çatdırmaqda aktivlik nümayiş etdirməlidir. Lakin fikrimizcə, bunun üçün birinci növbədə media mənsublarının özləri həqiqi islamı dərk etməlidir ki, aldığı hər hansı informasiyanı təhrif etmədən, mahiyyəti üzrə təqdim etməklə ölkədəki islami maarifləndirmə işinə öz töhfəsini versin. Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər xanım Cavadlı bu məsələnin çözümünü dövlət təhsil müəssisələrində dini bilikləri ehtiva edən fənlərin tədris olunmasında görür. Jurnalistlərin, ümumiyyətlə bütün cəmiyyətin düzgün dini biliklərə sahib olması üçün bunun önəminə diqqət çəkən Qəmər xanım deyir ki, dini mühitin zənginləşdirilməsi istiqamətində bu gün Azərbaycanda dövlət səviyyəsində işlər görülür və dövlət bu sahəyə hər cür dəstək verir. Lakin xanım Cavadlı haqlı olaraq bildirir ki, ideoloji işi birtərəfli qaydada aparmaq olmaz, buna bütövlükdə cəmiyyət dəstək verməlidir.

### Mətbuat Şurası ilə DQİDK-nin birgə fəaliyyəti, perspektivlər...

AMEA Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə isə bu gün dini ideologiyanın Qərbin və Şərqin çox ciddi təsirlərinə məruz qalmasından narahatdır və bu təsir vasitələrindən biri, hətta birincisi kimi sosial medianı qeyd edir. Bu kontekstdə medianın, sosial medianın və elmin roluna toxunan İ.Məmmədzadə bildirir ki, hər bir ölkədə və bütövlükdə dünyada baş verən hadisələr cəmiyyətə məhz media vasitəsilə təqdim olunur ki, bütün bu məqamlar mətbuatın gücünü dəyərləndirmək məsələsini günbəgün aktuallaşdırmaqla, onu daha əhəmiyyətli müstəviyə çıxarır. Bu fikirlərin davamı olaraq demək olar ki, Azərbaycan coğrafi mövqe baxımından bu iki sivilizasiya arasında yerləşdiyindən, istər Qərbin, istərsə də Şərqin təsirlərinə çox həssas bir durumdadır və Azərbaycan dövlətinin bu istiqamətdə məqsədyönlü siyasət yeritməsi bu təmayüllərin ölkəyə nüfuz etməsini ciddi şəkildə əngəlləyə bilir. Elə bu səbəbdəndir ki, bu gün müvafiq Dövlət Komitəsi bu təsirlərin neytrallaşdırılması yönündə gərgin iş aparmaqla yanaşı, bu kontekstdə mətbuatın rolunu da yüksək qiymətləndirir, media qurumları ilə birgə maarifləndirici işin təşkilinə xüsusi önəm verir. Deyilən fikirləri Mətbuat Şurasının sədri Əflatun Amaşov da bölüşür. Bu gün Azərbaycan mediasının kifayət qədər inkişaf etdiyini və baş verən hadisələrə milli maraqlar nöqteyi-nəzərindən yanaşdığını xüsusi qeyd edən MŞ sədri DQİDK ilə birgə tədbirlərin keçirilməsinə məhz bu üzdən böyük önəm verdiklərini bildirir.

Bütün bu deyilənlərdən çıxan nəticə isə ondan ibarətdir ki, milli mediamız dövlətçilik maraqlarına sadiqliyini bundan sonra da ardıcıl nümayiş etdirməli, dövlət-din və cəmiyyət-din münasibətlərində təkcə informasiya daşıyıcısı kimi deyil, həm də aparıcı rollardan birinin ifaçısı kimi çıxış etməlidir. Çünki bu, dövrün tələbidir.

***Samirə SƏFƏROVA***

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının 22 iyul Milli Mətbuat Günü münasibətilə "Din və media" mövzusunda keçirdiyi birgə müsabiqəyə təqdim olunur.**